## Bəlkə sönə...

Yoxluğuna dözməyən
dözümümə - əhsən - dedim!
Göz yaşlarımı
həsrətimə ehsan dedim...
Susamış mələklər -
qanadlı fəryadlılar
uçub ahımın göyündən
yerdə ehsan daddılar.
Bu həsrət də,
Bu ehsan da sənə həsrət.
Gəl, bax
yol çəkən gözlərimin
qara süfrəsində
verdiyim ehsanlara,
Bəlkə sönə həsrət!..

## Gecə yolum

Gecə,
gündüzün səs-küyündən,
izdihamlardan baxan gözlərin
suallarından gizlincə
bütün yolların bomboşluğu
mənim olur şəriksiz.
Ətrafımdakı yol getməyənlər -
nə varsa, gərəksiz,
Gecənin havası yumşaq.
Ruhun gecəsinin havası sazaq.
Havalı yolum
gah yaxın, gah uzaq...
Gecə - sirdaşım,
tənhalıq - həyanım,
külək - dostum,
yol - yoldaşım.
Xəyallarım -
Silahsız, qanadlı ordum.
Sakitlik - yorğunluğumun səsi -
hayqırtım.
Sakitliyin sədasını
içib, dinləyə-dinləyə
yol gedirəm gecə boyu.
Havadakı sükut mürgüsünə
deyirəm - oyan!
Səssizliyin bətnində böyüyən
Səsə deyirəm, - uyu!
Uyutmaq,
oyatmaq
savaşında bağırmışam,
Çağlamışam.
Çağlartımı çulğuyan yol
Köhnə, rahat ayaqqabım.
Uğur dualarına açıq əllərimlə
qaytanlarını da bağlamışam...

## Sözdən yerə

Bir dağ, bir dağ boyda söz var;
Sinəmizə çəkiləsi.
Dərəmizdə çox gündüz var;
Zirvəmizə çöküləsi...

Göz dağa uca baxmasa,
Ucalıq şərə düşəcək.
Köhlən söz dağa qalxmasa
Dağ sözdən yerə düşəcək...

## Bir ovuc

Dünyada bir ovuc torpaqdı dünya,
torpaq taptanırsa, tapdaqdı dünya!..
Bir ovuc torpaqlar yeriyib gedir.
Bir ovuc torpaqlar haray çəkirlər,
Bir ovuc torpaqlar kiriyib gedir...
Dərdi hər an, hər gün, hər ay çəkirlər...
İnsan da bir ovuc insandır elə,
Bir ovuc torpaqdır torpaq üstündə;
Ağlayan torpaqdır, gülən torpaqdır,
Yaşayan torpaqdır, ölən torpaqdır...
Ovuclar torpağı götürə bilir,
torpaq adamları sıxır ovuclar.
torpaqdan gözlərə baxır torpaqlar...
Ovuclara sığan yer üzü kimi
Bu torpaq bizlərə baxır torpaqlar...
İki ovucumu açdım Tanrıya
Bir ovucluğuma şükrümdən ötrü.
Ruhun qanadında uçdum Tanrıya,
Əyildim ovcuma zikrimdən ötrü...
İstər yerə gömül, istər göyə uç,
Hər an bir ovuca aşiqdir insan.
Gözlərə səpilən elə bir ovuc
torpaq görkəmində işıqdır insan.



Yusif Nəğməkar

## And yerim

Dillərdə yalan dolaşır,
Heç kəs heç kəsə inanmır.
Həqiqəti deyəndə də
Könül qızmır, ürək yanmır...

Dünyamı sıxan dünyanın
Sərt yolu, əyri düzü var...
Əlimdən çıxan dünyanın
Yerində yalan izi var...

Hara yazım bir kəlməmi?
Harda sözüm, şerim qalsın?!
Əlini mənə ver, Rəbbim,
Əlimdə and yerim qalsın!..

## Güləcək

Qönçə ılıq yelə bənddir,
Gül üzündə al güləcək.
Rəbb aynası tülə bənddir;
Pərdəsində xal güləcək.

Eşqin Leyli düzünə bax,
Məndən boylan, özünə bax...
Xəyalımın gözünə bax;
Baxışın bihal güləcək.

Qayıdıb dönsən yaxına,
Çiçək taxacam yaxana;
Arı qonacaq yuxuna -
Dodağında bal güləcək.

Qaşlarında sınacaq qış,
Didəndən tökəcək yağış.
Yağmurlu yollardan yığış,
Ötən qeyli-qal güləcək.

Dərd sənlə peyman bağlasa,
Qorxma, nisgilin çağlasa.
Gözündə həsrət ağlasa,
Könlündə vüsal güləcək.